Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Yenilənmişdir: Mart 2026

# Peşə təhsili və təlimi üçün məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Peşə təhsili və təlimi üçün milli viza almaqdan ötrü bütün lazımi sənədləri **Almaniyanın Federal Xarici İşlər Nazirliyinin internet portalına** göndərməklə onlayn şəkildə müraciət etmək olar. Səfirlik onlayn-prosesi çərçivəsində kənar viza xidməti olan TLScontact şirkəti ilə işləyir. Almaniyanın Federal Xarici İşlər Nazirliyinin internet portal hesabına əlavə olaraq göstərilən linkdən TLScontact platformasında da hesab yaradın: https://visas-de.tlscontact.com/en-us/registration?issuerId=azBAK2de. TLScontact şirkəti sənədlərinizin tamlığını onlayn şəkildə yoxlayır. Bütün sənədlər hazır olduqda, Sizin üçün ən yaxın viza dəstəyi üçün xidmət şirkətində (VXŞ) görüş təyin olunacaqdır. Orada barmaq iziniz alınacaq və Siz viza rüsumunu da ödəyəcəksiniz. Bundan sonra ərizəniz Almaniya Səfirliyinə göndəriləcək. Viza müraciətinizlə bağlı qərar viza xidməti şirkəti tərəfindən deyil, səfirlik tərəfindən verilir. İstənilən vaxt internet portal vasitəsilə ərizənizin işlənmə mərhələsini izləyə bilərsiniz.

İnternat portal vasitəsi ilə müraciət etmək üçün bu keçiddən istifadə edə bilərsiniz: https://digital.diplo.de/aus-und-weiterbildung

Sənədlərə baxılma müddəti 6-12 həftədir. Əgər Siz əvvəllər müvəqqəti qalma icazəsi (Duldung) və ya Almaniyada müvəqqəti yaşamaq icazəsi əsasında ölkədə qalmısınızsa və ya ölkədə qalmağınızı dayandırmaq üçün Sizə qarşı tədbirlər görülübsə, sənədlərin işlənməsi təx. 3 ay davam edir və fərdi hallarda daha uzun çəkə bilər. Nəzərə alın ki, 12 həftəyə qədər davam adi işlənmə prosesi zamanı təəssüf ki, sənədlərin işlənmə vəziyyətinə dair sorğulara cavab verilə bilməyəcəkdir.

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

| **Viza ərizəsi üçün sənədlərin siyahısı**<br>Hər bir müraciət üçün aşağıdakı sənədlər tam şəkildə təqdim edilməlidir. |
|---|
| ☐ Xarici pasport ən az 2 boş səhifəsi olmaqla (xarici pasportun şəkil olan səhifəsi və əvvəlki vizalar, möhürlər və qeydlər olan səhifələrin 1ədəd surəti) |
| ☐ Şəxsiyyət vəsiqəsi və ya Azərbaycan vətəndaşlığı olmayan şəxslər üçün etibarlı olan “ Azərbaycanda yaşamaq icazəsi ” sənədi *(əsli + 1 ədəd surəti)* |
| ☐ 1 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması |
| ☐ 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı) |
| ☐ “Almaniyada Yaşamaq Haqqında Qanun“un §54 maddəsinə uyğun olaraq viza prosedurunda saxta məlumatların verilməsi haqqında imzalanmış bəyannamə |
| ☐ Viza rüsumu (bax: milli viza ilə bağlı ümumi məlumatlar) |
| ☐ mövcud olan təqdirdə: Federal Məşğulluq Agentliyinin erkən razılığı YAXUD mütəxəssislər üçün sürətləndirilmiş proses çərçivəsində Miqrasiya İdar\sinin erkən razılığı |
| ☐ Peşə təhsili haqqında müqavilə *(əsli və 1 ədəd surəti)* ən azı aşağıdakı məlumatlar daxil olmaqla*:*<br>- peşənin dəqiq adı<br>- peşə təhsilinin keçiriləcəyi müəssisəyə) və/ və ya peşə məktəbinə dair məlumatlar (faktiki iş yerinin ünvanı və müəssisədə əlaqələndirici şəxsin məlumatları)<br>-həftəlik iş saatlarında dair məlumat (tam ştat/yarım ştat)<br>- peşə təhsili üçün ödənilən əmək haqqı(vergilər çıxmadan aylıq məbləğ avro ilə) |

- peşə təhsilinin müddəti
- qayğı-qulluq peşələri üçün əlavə: peşə məktəbində yerin mövcudluğu haqqında təsdiq
- tibb peşələri (məs. MFA/ZFA) üçün əlavə: peşə təhsili haqqında müqavilənin Həkimlər Palatasında qeydiyyatı; tələb olunarsa: peşə təhsilinin alınacağı müəssisənin Sənaye və Ticarət Palatasında (İHK) qeydiyyatı (məs. hotelçilik sahəsində peşələr)

☐ Təhsil almaq üçün yerin və peşə seçimini əsaslandıran motivasiya məktubu

☐ Tam orta və ya ali təhsili təsdiq edən sənədlər (diplom və diploma əlavə) *(əsli – Apostil və alman dilinə tərcümə olunmuş + 1 ədəd surəti)*

☐ *bəzi hallarda:* ixtisaslaşmaya dair digər təsdiqlər (məs. iş yerindən arayış) *(əsli + 1 ədəd surəti)*

☐ Almaniyanın federal ərazisində maddi təminata dair sənəd:
Sənəd ilə təsdiq edilən məbləğ BAföG ("Federal təhsilə dəstək") qanununa əsaslanır. Peşə təhsili üçün aylıq əmək haqqının vergilər çıxılmamış ümumi məbləği ən az 1.048 avro olduqda, bu məbləğ maddi təminatın mövcudluğu kimi isbat olunur. Qidalanma və /və ya yaşayış yeri təhsil müəssisə tərəfindən qarşılanırsa bu məbləğ müvafiq olaraq azalır (hər birinə görə 150 avro məbləğinə qədər).

Yaşam xərclərinin təhsil müəssisənin verdiyi əmək haqqı ilə təmin olunmadığı (və ya tam təmin olunmadığı) təqdirdə, maliyyə vəsaitlərin olması aşağıdakı sənədlərə təsdiq edilə bilər:

- Dondurulmuş bank hesab ən az 12 ay müddətinə çatışmayan vəsait məbləğində (peşə təhsili üçün aylıq əmək haqqının məbləği 1.048 avrodan çıxılaraq):
*Məsələn: peşə təhsili üçün aylıq əmək haqqınız 850 avro: 1.048 avro - 850 avro = 198 avro. Bununla dondurulmuş bank hesabınızda 12 ay üçün ( 198 avro x 12 ) 2.376 avro həcmində məbləğ təsdiq edilməlidir.*
- "Almaniyada Yaşamaq haqqında Qanun"un mad.66-68 qeyd olunmuş öhdəlik haqqında bəyanatın əsli (6 aydan köhnə olmamaqla) və öhdəliyə götürən şəxsin maliyyələşdirmə iqtidarında olmasının sənəd ilə sübutu (şifahi əsaslandırma kifayət etmir)

☐ Təhsili alacağınız dilə dair bilikləri təsdiq edən sertifikat ən az B1 səviyyəsində təsdiqi
*və ya*
təhsil ocağı tərəfindən dil biliklərinin yoxlandıldığı və təhsil üçün kifayət edəcəyinə dair təsdiq
*və ya*
təhsilə hazırlıq üçün dil kursunun keçirilməli olduğu barədə sənəd

☐ tələb olunduğu təqdirdə: iş icazəsi və ya onun veriləcəyinin təsdiqi (məs. həkimlər üçün ixtisasartırma zamanı)

☐ Səyahət sığortası (nəzərdə tutulan səfər tarixindən işə başladığınız tarixədək qüvvədə olan, bütün Şengen dövlətləri üçün etibarlı və sığorta ödənişinin minimal məbləği 30.000 avro olan tibbi sığorta haqqında sənəd)

☐ **Yetkinlik yaşına çatmayan ərizəçilər tərəfindən təqdim edilməli sənədlər:**

☐ Doğum haqqında şəhadətnamə *(surəti və təsdiqlənmiş tərcüməsi)*

☐ Hər iki valideyn/qəyyum tərəfindən uşağın Almaniyada yaşamağına dair razılığını bildirən və notarius tərəfindən təsdiq edilmiş razılıq sənədi *(əsli + surəti)*